# IV İslam Həmrəyliyi Oyunları dünyaya sübut edəcək ki, İslam dini sülh, mərhəmət və qardaşlıq dinidir

***2017-ci ildə Bakıda keçiriləcək IV İslam Həmrəyliyi Oyunları həm dünya, həm İslam aləmi üçün çox önəmli idman yarışmasıdır. İslam Həmrəyliyi Oyunları Azərbaycanı bir daha dünyada böyük nüfuza malik ölkə kimi nümayiş etdirəcək. Bu idman tədbirinin yüksək səviyyədə keçirilməsi üçün Azərbaycan əlindən gələni edəcək.***

*İlham ƏLİYEV*
*Azərbaycan Respublikasının Prezidenti*

***Rio -de- Janeyroda XXXI Yay Olimpiya Oyunlarında yaddaqalan hadisələrdən biri də 2017-ci ildə Bakıda keçiriləcək IV İslam Həmrəyliyi Oyunlarının "Windzor Barra" otelində təqdimat mərasiminin keçirilməsi idi. Altmışdan artıq qonağın toplaşdığı mərasimdə gənclər və idman naziri Azad Rəhimov, Milli Olimpiya Komitəsinin vitse-prezidenti Çingiz Hüseynzadə, Azərbaycanın Braziliyadakı səfiri Elnur Sultanov, IV İslam Həmrəyliyi Oyunları Əməliyyat Komitəsinin direktoru Elçin Səfərov, Rio Olimpiya Oyunlarında Azərbaycan nümayəndə heyətinin rəhbəri İlham Mədətov iştirak edirdilər.***

Mərasimə, həmçinin digər rəsmilər, eyni zamanda, İslam Həmrəyliyi İdman Federasiyasının 1-ci vitse-prezidenti, Əlaqələndirmə Komissiyasının sədri, polkovnik Hamad Kalkaba Malboum, Nigerin Baş naziri Ada Salissau, Qvineya-Bissaunun Baş naziri Bakiro Dja, Malayziya, İndoneziya, Qvineya-Bissau, Çad, Qambiya, Fələstin, Suriya və digər İslam ölkələrinin milli olimpiya komitələrinin prezidentləri, baş katibləri və idmana məsul nazirləri qatılmışdılar. Tədbirdə qeyd olunub ki, son illər davamlı olaraq, dünyaya tolerantlıq nümunəsi göstərən Azərbaycanın

BAKU 2017
4th Islamic Solidarity Games

IV İslam Həmrəyliyi Oyunlarını keçirməkdə məqsədi İslam dininin gözəlliyini, insanlar arasında dostluq, mehribanlıq münasibətlərini yaratmağı nümayiş etdirməkdir.

Mərasimdə qonaqlar üçün nümayiş etdirilmiş filmdə IV İslam Həmrəyliyi Oyunları, yarışa hazırlıq prosesi, idman obyektləri haqqında məlumat və digər mühüm məqamlar öz əksini tapıb. Bir daha məlum olub ki, ölkəmiz belə yüksək səviyyəli tədbirləri keçirməyə qadirdir. Bu vaxta qədər keçirilən beynəlxalq əhəmiyyətli tədbirlər də bunu təsdiqləyir.

Son illər ölkəmizdə, xüsusən də paytaxt Bakıda keçirilən beynəlxalq tədbirlərin sırasına nəzər salsaq, bir daha şahidi olarıq ki, respublikamız çox əhəmiyyətli, beynəlxalq miqyaslı yarışlara, festivallara, qlobal forumlara, mədəniyyətlərarası və sivilizasiyalararası dialoqlara, mötəbər konfranslara, nüfuzlu tədbirlərə ev sahibliyi edib. Təbii ki, belə tədbirləri keçirmək üçün respublikamıza etimadın göstərilməsi təsadüfi deyil. Bu inam, əlbəttə, Azərbaycanın, xüsusilə, son illər dünya birliyində qazandığı hörmətin, getdikcə artan reytinqinin, möhkəmlənən beynəlxalq çəkisinin ifadəsidir.

Azərbaycanın Şərqlə Qərbin qovuşuğunda yerləşməsi və sürətlə inkişaf etməsi beynəlxalq ictimaiyyətin ölkəmizə olan marağını daha da artırıb. Respublikamızın bir çox sahələrdə mühüm uğurlara imza atması da, təbii ki, dünya ictimaiyyətinin diqqətindən kənarda qalmamışdır. Ölkəmizin iqtisadi qüdrətinin artması və ictimai-siyasi sabitliyin davamlı olması, demokratik proseslərin inkişafının dövlət siyasətinin prioritetinə çevrilməsi də bu amillərə öz təsirini göstərən faktlardandır. Bütün bunlar, həm Azərbaycanın beynəlxalq imicinə müsbət təsir göstərir, həm də dövlətimizin maraqlarının təmin edilməsinə şərait yaradır.

Hazırda Azərbaycan dünyanın diqqət mərkəzində olan mühüm məsələlərin müzakirə olunduğu siyasi, iqtisadi və humanitar mərkəz kimi tanınır. İnkişaf etmiş dövlətlərin rəhbərlərinin və hökumət başçılarının, yüksək səviyyəli dövlət və ictimai xadimlərin, nüfuzlu beynəlxalq qurumların təmsilçilərinin, həmçinin digər tanınmış xadimlərin, diplomatların belə tədbirlərdə iştirakı respublikamızdakı multikultural mühitin, qazanılan uğurların dünyada təbliğ olunması baxımından geniş imkan açır.

Son illər dünyada maliyyə və iqtisadi böhranın tüğyan etməsinə baxmayaraq, iri infrastruktur layihələrin və nəzərdə tutulan proqramların reallaşdırılması Azərbaycanın bütün sahələr üzrə öz inkişaf modelini yaratması həqiqətini ortaya qoymaqdadır. Azərbaycan Prezidenti İlham Əliyev həmin məsələyə münasibət bildirərkən demişdir ki, bu gün Azərbaycan dünya miqyasında elə də böyük dövlət deyil, lakin sözümüzün çəkisi böyükdür.

Ölkəmizin çəkisinin, rolunun dünya siyasətində qiymətləndirilməsi onu dünya miqyasında etibarlı tərəfdaş kimi tanıtmışdır. Bunu Azərbaycanın 2012-2013-cü illərdə BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzv seçkilərində, müxtəlif vaxtlarda iki dəfə bu təşkilata uğurla sədrlik edəndə gördük. Eyni zamanda, beynəlxalq miqyaslı, dünya əhəmiyyətli idman yarışlarının keçirilməsi zamanı da bunun şahidi olduq. Amma unutmaq olmaz ki, Bakı həm də digər mötəbər tədbirlərə–zirvə toplantılarına, elmi konfranslara, idman, musiqi yarışlarına, teatr, kino festivallarına ev sahibliyi edir. NATO Parlament Assambleyasının seminarı, ATƏT Parlament Assambleyasının illik sessiyası, IV Bakı Beynəlxalq Humanitar forumları, Gənclər siyasəti üzrə I Qlobal forumu, Caz Festivalı, "Teatr sənətinin multikulturalizm-universal dəyərlər sistemində yeri" mövzusunda keçirilən Üçüncü Bakı Beynəlxalq Teatr Konfransı, "Eurovision-2012" musiqi yarışması, "Bakı Elm Festivalı-2014", BMT-nin Sivilizasiyalar Alyansının 7-ci Qlobal Forumu, dünya azərbaycanlılarının qurultayları kimi mühüm əhəmiyyət kəsb edən tədbirləri misal çəkmək olar. Bütün bunlar bir daha təsdiqləyir ki, Azərbaycan dünyada baş verən proseslərə təsir etmək gücündədir və artıq çoxdan regional səviyyəni aşıb. Odur ki, ölkəmizdə keçirilən beynəlxalq tədbirlər, müsiqi festivalları və idman yarışları heç də təsadüfi hesab edilə bilməz.

Ölkəmizin 2015-ci ildə birinci Avropa Oyunlarına, bu il "Formula-1" kimi çətin yarışlara ev sahibliyi etməsi, indi isə IV İslam Həmrəylik Oyunlarının Bakıda keçirilməsinə hazırlaşması, bir müsəlman ölkəsinin Avropa ölkəsi kimi ön plana çıxması müasir dünyamız üçün unikal hadisələrdən biridir. Çünki bu tədbirlər, ilk növbədə, Avropa ilə bağlıdır. Eyni zamanda, bu tədbirlər Azərbaycanın sürətlə inkişaf etməsnin bariz nümunəsidir. Bu, bir faktdır ki, belə tədbirlərin seçimi zamanı təşkilatçılar, ilk növbədə, sabitliyin, təhlükəsizliyin təmin olunduğu inkişaf gedən ölkələrə etimad göstərirlər. Bu yarışlarla dünya Azərbaycanı kəşf edir, paytaxtımızı, onun tərəqqisini, inkişaf səviyyəsini görür, qədim tariximizlə yaxından tanış olur, ən başlıcası isə mehriban, xoşməramlı, qonaqpərvər insanlarımızla təmasda olur.

Avropanın və dünyanın müxtəlif ölkələrindən gəlmiş qonaqlar, çoxsaylı turistlər, həmçinin tədbir iştirakçıları Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ həqiqətləri ilə yaxından tanış olur, bununla da erməni yalanları öz təsdiqini tapır. Göründüyü kimi, beynəlxalq miqyaslı tədbirlərin ölkəmizdə keçirilməsi Azərbaycan reallıqlarının dünyaya çatdırılması baxımından da əla imkandır. Ölkəmizin əleyhdarlarının haqqımızda təhrif olunmuş, xoşagəlməz məlumatlarını qabaqcadan eşidən qonaqlar, turistlər bir daha şahidi olurlar ki, Azərbaycan sürətlə inkişaf edən, demokratik azadlıqların qorunduğu, müxtəlif sahələr üzrə islahatlar aparılan bir dövlətdir. Bütün bunlara rəğmən IV İslam Həmrəyliyi Oyunlarına ev sabibliyi etməmiz böyük əhəmiyyət kəsb edir.

IV İslam Həmrəyliyi Oyunlarının Bakıda keçirilməsi üçün hər cür şərait yaradılıb. I Avropa Oyunlarının yüksək səviyyədə təşkil edilməsi və uğurla başa çatması belə möhtəşəm idman tədbirinin Bakıda keçirilməsi üçün zəmin yaratmışdır. "Bakı-2017"-də keçiriləcək yarışlar ilk Avropa Oyunları zamanı istifadə olunan arenalarda təşkil ediləcək. Beynəlxalq ekspertlər də təsdiqləyirlər ki, həmin idman meydançaları ən müasir texniki tələblərə cavab verir. ISSF-nin (İslam Həmrəylik İdman Federvsiyası) birinci vitse-prezidenti Hamad Kalkaba Malboum da deyib ki, Azərbaycan ilk Avropa Oyunlarına uğurla ev sahibliyi etməklə yüksək təşkilatçılıq qabiliyyətini bütün dünyaya göstərib. Onun sözlərinə görə, IV İslam Həmrəyliyi Oyunları da yüksək səviyyədə keçiriləcək və həm iştirakçılar, həm də qonaqlar Bakıdan xoş təəssüratlarla ayrılacaqlar.

Azərbaycan Prezidenti İlham Əliyevin IV İslam Həmrəyliyi Oyunları kimi möhtəşəm idman tədbirinin yüksək səviyyədə keçirilməsi üçün Təşkilat Komitəsinin yaradılması barədə sərəncam imzalaması və komitəyə rəhbərliyin Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevaya həvalə olunması bu mötəbər idman tədbirinin də uğurla baş tutacağından xəbər verir. Çünki Mehriban Əliyevanın həm "Eurovision -2012" mahnı müsabiqəsi, həm də birinci Avropa Oyunları ilə bağlı yaradılan təşkilat komitələrinə rəhbərlik etməsi və həmin tədbirlərin yüksək səviyyədə başa çatması beynəlxalq ictimaiyyət tərəfindən də yüksək dəyərləndirilib.

IV İslam Həmrəyliyi Oyunları Təşkilat Komitəsinin sədri Mehriban xanım Əliyeva əminliklə bildirmişdir ki, qarşıda duran vəzifələr uğurla reallaşdırılacaq və Azərbaycan İslam Həmrəyliyi Oyunlarını da yüksək səviyyədə başa vuracaq. Mehriban xanım demişdir ki, bugünə qədər keçirilən tədbirlər ölkəmizin gücünü, təşkilatçılıq qabiliyyətini nümayiş etdirmişdir: "İslam Həmrəyliyi Oyunları müstəqil Azərbaycanın tarixinə növbəti qələbə kimi daxil olacaq. Birinci Avropa Oyunları dövründə əldə edilən böyük təcrübədən bu Oyunlar zamanı da istifadə olunacaq. 2013-cü ilin iyul ayında Ciddədə İslam Həmrəyliyi İdman Federasiyasının VIII Baş Assambleyasında IV İslam Həmrəyliyi Oyunlarının Bakıda keçirilməsi ilə bağlı qəbul edilən tarixi qərar Azərbaycanın bu yarışları yüksək səviyyədə keçirmək iqtidarına malik olmasından xəbər verir".

Oyunlarda iştirak edəcək idmançıların Atletlər Kəndində, jurnalistlərin isə Media Kəndində yerləşdirilməsi nəzərdə tutulub. Tədbirin dünyada təbliği və informasiya dəstəyinin ən vacib məsələlərdən biri olması ilə bağlı internet portalının hazırlanacağı (bu iş artıq başa çatmaq üzrədir), 10 minə yaxın gəncin könüllü kimi Oyunlara cəlb olunacağı da prioritet vəzifələrdəndir.

IV İslam Həmrəyliyi Oyunlarının Azərbaycanda keçirilməsinə etimad göstərilməsinin əsas səbəblərindən biri də ölkəmizin İslam ölkələri ilə əməkdaşlığının və münasibətlərinin daim yüksək səviyyədə olması və İslam aləmində xüsusi əhəmiyyətə malik dövlətlərin tərəfdaşına çevrilməsidir. Azərbaycanın multikultural dəyərlərə böyük önəm verməsi artıq dünya birliyində də etiraf olunur. Elə bu səbəbdən də Azərbaycanın IV İslam Həmrəyliyi Oyunlarına ev sahibliyi etməsi böyük dəstək qazanıb.

2017-ci ilin mayında keçiriləcək, 21 idman növü üzrə 57 ölkəni təmsil edən 6 mindən çox idmançının mübarizə aparacağı yarışın əsas şüarı "Həmrəylik bizim gücümüzdür" seçilib.

*Əliqismət BƏDƏLOV,*
*"Xalq qəzeti"*